# MUSiQi DÜNYASi



1-2 2010

## "Musiqi Dünyası"nın saytları

http://musigi-dunya.az
"Musiqi Dünyası" elektron jurnalı
http://vagif.musigi-dunya.az
Vaqif Mustafazadənin şəxsi saytı
http://arshin.musigi-dunya.az
Ü.Hacıbəylinin "Arşın mal alan" virtual muzeyi
http://uzeyir.musigi-dunya.az
"Üzeyir Hacıbəyli" İnternet portalı
http://afrasiyab.musigi-dunya.az
Əfrasiyab Bədəlbəylinin şəxsi saytı
http://lugat.musigi-dunya.az
Ə.Bədəlbəyli. "İzahlı monoqrafik musiqi lüğəti"
http://intellect.musigi-dunya.az
"İntellektual mülkiyyət" elektron jurnalı
http://e-library.musigi-dunya.az
Musiqiçinin elektron kitabxanası
http://meshadi.musigi-dunya.az
Ü.Hacıbəylinin "O olmasın bu olsun" virtual muzeyi
http://harmony.musigi-dunya.az
"Harmony" musiqi kulturoloji beynəlxalq elektron jurnalı
http://musbook.musigi-dunya.az
Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" kitabı
http://composers.musigi-dunya.az
Azərbaycan Bəstəkarları və Musiqişünaslarının kataloqu
http://uzeyirbook.musigi-dunya.az
Üzeyir Hacıbəylinin elektron ensiklopediyası
http://diskografiya.musigi-dunya.az
"Azərbaycan Diskoqrafiyası" 1900-1940-ci illər kataloqu
http://leyli-mejnun.musigi-dunya.az
Ü.Hacıbəylinin " Leyli və Məcnun" virtual muzeyi
http://qara-qarayev.musigi-dunya.az
Qara Qarayevin şəxsi saytı
http://musakademiya.musigi-dunya.az
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
http://atlas.musigi-dunya.az
Azərbaycan ənənəvi musiqisi atlası
http://voices.musigi-dunya.az
Azərbaycan tarixinin canlı səsləri
http://tofiqquliyev.musigi-dunya.az
Tofiq Quliyevin şəxsi saytı
http://mugam.musigi-dunya.az
Muğam ensiklopediyası
http://epistolyar.musigi-dunya.az
Azərbaycan epistolyar irsi
http://ders.musigi-dunya.az
"Üzeyir Hacıbəyli" dərs vəsaiti
http://bestekar.musigi-dunya.az
Azərbaycan bəstəkarların portalı
http://museum.musigi-dunya.az
Azərbaycan virtual muzeyi
http://menevi.musigi-dunya.az
Azərbaycanın mənəvi irsi

18534

**MUSİQİ DÜNYASI**

**Beynəlxalq, elmi-pedaqoji, tənqidi-publisistik və mədəni-maarif musiqi jurnalı.**
**Təsisçilər:**
Azərbaycan Bəstəkarlar İttifaqı
Bakı Musiqi Akademiyası
"Koroğlu–T" firması.

**Baş redaktor:**
TARİYEL MƏMMƏDOV

e-mail: **tmamedov@azdata.net**

**Redaksiya heyəti:**
Oqtay Abasquliyev
Gülnaz Abdullazadə
Fərhad Bədəlbəyli
Fərəh Əliyeva
Firəngiz Əlizadə
Anna Əmrahova (Rusiya)
Zemfira Səfərova
Aleksandr Sokolov (Rusiya)
Violetta Yunusova (Rusiya)
Ramiz Zöhrabov

**Məsul redaktor:**
Cəmilə Həsənova

**Redaktorlar:**
Ellada Hüseynova
Leyla Məmmədova
Səadət Təhmiraz qızı

**Rəssam:**
Alina Cahangirova

**Kompüterdə yığdı:**
Diana Karpova
Ülviyyə Məmmədova

**Kompüter dizaynı:**
İrina Tişakova

**Üz qabığında:**
xalq şairi Rəsul Rzanın şəkli

**Redaksiyanın ünvanı:**
AZ1014, Bakı şəh.,
Ş.Bədəlbəyli küç., 98.
Tel.: (99412) 5984370,
Fax: (99412) 4932302

E-mail: **info@musigi-dunya.az**
İnternet elektron jurnalın ünvanı:
**http://www.musigi-dunya.az**

Jurnalda çap olunmuş materialların və fotoların bütövlükdə, yaxud qismən təkrar çapı və ya hər hansı digər formada çoxaldılması redaksiyanın və ya material müəlliflərinin yazılı icazəsi əsasında həyata keçirilə bilər.

© "Musiqi Dünyası", 2010

"Əbilov, Zeynalov və oğulları" İTK mətbəəsində çap olunmuşdur
M.Qorki küç., 43. Tel.: 4973623

1-2/43 2010

# İÇİNDƏKİLƏR:

3 Redaktordan

AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQINDA
4 *G.Mahmudova.* Azərbaycan Bəstəkarlar İttifaqının yubileyi münasibətilə Beynəlxalq festival
9 Xəbərlər

USTADLARIMIZIN XATİRƏSİNƏ
15 *Z.Səfərova.* Rəsul Rza və musiqi (Rəsul Rzanın anadan olmasının 100 illiyinə həsr olunur)
17 *İ.Əfəndiyeva.* Vaqif Mustafazadənin musiqi dilinin novatorluğu
22 *A.Cəfərzadə.* Unudulmaz Baba Mahmudoğlu Mirzəyev
24 *B.Rzayeva.* Sənətin Arifi
26 Azəprbaycan Respublikasının əməkdar incəsənət xadimi, görkəmli alim, pedaqoq, ictimai xadim, professor Elmira Abasovaya həsr olunmuş elmi-nəzəri konfrans
27 *Z.Dadaşzadə.* Elmira Abasova müasir Azərbaycan musiqisinin araşdırıcısı kimi
29 *İ.Əfəndiyeva.* Elmira Abasovanın tədqiqatlarında nəzəri problemlərin araşdırılması
31 *Ş.Həsənova.* Unudulmaz alim
32 *L.Məmmədova.* Müəllim haqqında düşüncələr...
33 *Ü.İmanova.* E.Abasovanın elmi-tədqiqatlarına dair (musiqişünas tələbə və dissertantların misalında)

MƏXƏZŞÜNASLIQ
34 *Z.Səfərova.* XV əsr Şirvan aliminin «Musiqi məcəlləsi»
37 *Ə.Tuncay.* Nizami Gəncəvi yaradıcılığında musiqinin vəsfi

MUSİQİŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ
41 *И.Старостин (Россия).* Юрий Николаевич Холопов: Новаторское прочтение педагогических традиций
46 *Ю.Дружкин (Россия).* Рабочие материалы к статье «Глядя из нулевых»
52 Пять прогулок с Сергеем Загнием по парку им. С.Загния (Беседовала с композитором А.Амрахова)
60 *Н. Ренева (Россия).* Ритмические идеи молодого Булеза
68 *К.Зыбина (Россия).* «Истинный Феникс» творческие диалоги Моцарта и Да Понте в опере «Дон Жуан»
77 *Т.Сергеева (Россия).* Из истории фэрмирования и развития андалусской музыкальной классики (продолжение)
91 *Н.Телкова (Россия).* Особенности метроритма в кантате ор. 31 Антона Веберна

PORTRETLƏR
96 *İ.Əfəndiyeva.* Sevimli bəstəkarımız, gözəl həmkarımız - Sevda İbrahimova
*K.Ələsgərli.* Ağ işığın sevinc çaları (Dadaş Dadaşov - 75)

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası

Если ключ к спектаклю находится у режиссера, то открывающим эту дверь является художник, который, используя эскизы и макеты, создает образ спектакля.

В статье анализируется особенности между режиссером и художником при создании образа спектакля, которые в конечном итоге приходят к единому решению и находят наиболее выразительные средства для их воплощения.

Данная статья может быть рекомендована руководством молодым художникам при рассмотрении отношений между режиссером и художником.

## SUMMARY

### COOPERATION OF DESIGNER WITH DIRECTOR

Historically, analyzing the image of the play the relation between stage manager and the painter are investigated, the creative basis of their relationships are analyzed; what principals were the guarantee of their creative unification.

If the key of the play is in the stage manager, the one who opens the door is painter that creates image of the play using the sketches and models.

In creation of the stage image the peculiarities between the stage manager and the painter, that come to the common solution and find more expressive means for their realization has been analyzed in this article.

I think present article serves as guidance for young painters in the analyses of difficult terms between the stage manager and the painter.

**Rəyçilər:** sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə

# "NƏSIMI"DƏN BAŞLANAN SƏHİFƏ

*Vüsalə XANLARQIZI*

Nəsimi obrazı haqqında Həsən Seyidbəylidən soruşanda çox böyük inamla cavab verərdi:

"Çılğın, istiqanlı, üsyankar şair obrazını yaratmaq, belə bir şəxsiyyətin bütün təzadlı, gərgin ömrünü yaşamaq gənc aktyor Rasim Balayev üçün çox çətindir. Aktyordan böyük həyat, ekran və səhnə təcrübəsi tələb olunur. Rasim həm zahiri görkəmi, həm də emosionallığı ilə istənilən tələbə uyğun gəlir. Onun üzündə nə isə qəribə bir qədimlik var. Bir növ, orta əsr adamlarını xatırladır. Üzünün cizgiləri son dərəcə ifadəlidir, gözləri mə"nalıdır".

"Nəsimi qəzəllərini oxuyanda bizi də, tamaşaçıları da sarsıda bildi. Kadrdan -kadra Nəsimiləşdi. Onun bütün varlığından Nəsimi ehtirası, Nəsimi şeriyyatı, Nəsimi dəyanəti sızmağa başladı" deyən Həsən Seydbəyli bildirirdi ki, "Buna görə də həm Ümumittifaq kino festivalında, həm də Daşkənddə keçirilən beynəlxalq festivalda Rasim Balayevin aktyorluq sənəti və məharəti çox yüksək qiymət aldı. "Pravda" qəzetində Rasim Balayev beynəlxalq kino festivalının kəşfi kimi qeyd olundu". Əslində bu kəşf Həsən Seydbəyliyə aid idi. O, fikir tariximizidə XIV əsrdə kəşf olunmuş şair Nəsiminin üstündən 600 il keçdikdən sonra sənətdə surətini kəşf etmişdi......

Rasim Balayevin Nəsimi obrazı onun gənc bir aktyor kimi ilk işi, sənət dünyasına aldığı ilk vəsiqə idi. Bəlkə də bu obrazla Rasim öz yaradıcılıq xəzinəsi ilə, öz çoxcəhətli istedadının boyaları ilə tanış oldu. Rasim özünü bir istedad, bir yaradıcı, yaxşı imkanları olan bir aktyor kimi kəşf etdi və özü-öz gücünə inandı. Bu inam Nəsimi obrazını yaratmaq üçün gənc və böyük sənətdə heç bir təcrübəsi olmayan Rasim Balayevə çox lazım idi. Özünə inam onda Nəsimi kimi qüdrətli bir filosofun haqq yolunda apardığı ideoloji bir mübarizəni, bu mübarizənin mahiyyətini dərk edib, onu öz aktyor təbiətindəki ifaçılıq qabiliyyətinin vəhdətində əyaniləşdirməyinə imkan yaradırdı. Kamil insan haqqında çəkilmiş bu bədii filmdə bütün əsas ağırlıq Nəsimi obrazının ifasına bağlı idi.....

70-80-cı illərdə tarixi mövzuda əsər yaratmaq müəllifdən xalq qarşısında daha çox məsuliyyət hissi daşımasına səbəb olur. İsa Hüseynovun Nəsimi və Nizami haqqında yazdığı ssenarilərini və digər tarixi faktlara əsaslanan kinossenariləri əsasında çəkilən filmlərin rejissorlarından daha çox diqqətli olmaq, tarixi faktları ciddi şəkildə araşdırmaq kimi vəzifələr dayanırdı. Tarixin səhvələrini bu günün problemləri müstəvisindən vərəqləmək, reallıqların fonunda ona münasibət bildirmək kino sənətində də sözü gedən illərdə əsas sənət prinsipindən biri idi.

1973-cü ildə yazıçı İsa Hüseynovun "Nəsimi" yə müraciət etməsinin səbəbi nə idi? Nəsimi Azərbaycan xalqının düşüncəsində şair, filosof kimi yaşadığı halda, onun tarixi bir şəxsiyyət, bir dini-əqidə məfkurəsi etibarı ilə apardığı idealoji mübarizə əzmini xüsusi olaraq bədiiləşdirib diqqətə çəkmək fikri hansı prinsiplərə xidmət edirdi? Bu tarixi obrazın filimdə bu gün oyatdığı tarixi yaddaşın bu günümüzün reallıqlarında diqqəti cəlb edən problemləri baxımından xalqın mə"nəvi-psixoloji vəziyyətinin ifadəsi üçün zəminə çevrilə bilərdimi? Xalq yazıçısı İsa Hüseynov özünün "İdeal" romanında tarixi qeyri müəyyənlik prizmasından təhlil edərək, simvolik atmacalarla keçmişlə bu günün müqayisəsinə nail olsa da , birdə-birə Şərqdə ən qüdrətli tarixi-fəlsəfi hərəkat olan Hürufiliyi, Nəsimi dövrünü yada salıb, onu bu günün dünya görüşünün kontekstində ekranlarında görmək istəməsi də böyük maraq doğururdu. Burada ssenarist "zaman və məkanla" istədiyi şəkildə rəftar edərək, xüsusi bir tarixi epoxanın çox dolğun və canlı təsvirini yaratmağa müvəffəq olmuşdur. Ssenarinin yaranma prosesini şərh edən görkəmli alim Gülrux Əlibəyovanın fikirlərinə diqqət yetirək: "Nəsiminin idealları dövrümüzün idealları ilə səsləşir. Nəsimi filosof-mütəfəkkirdir, lakin xalq, din, aləm zaman anlayışları onun üçün mücərrəd məhvum olmamış, onların mə"nasını böyük şair həyatın gücü ilə sınamışdır; " Həqiqət cümlə aləmdir. Aləm zərrələrdən ibarətdir. Hər bir zərrənin öz bətnində xəlq etmək qüdrəti var Amma hər xəlq edə bilənə allah demək olmaz. Çünki allah kamillik deməkdir. Kamillik isə insana xas olan şeydir. Kamil insan problemini 600 il bundan əvvəl ortaya qoyan Nəsiminin fəlsəfəsini bu gün ekranda əyaniləşdirmək, gəncliyi bu dərin fəlsəfi dünyagörüşün işığına cəlb etmək, Şərq renessansının dahi nümayəndəsi, Azərbaycan fəlsəfi poeziyasının banisi İmadəddin Nəsiminin tarixə dönmüş həyatına bu günün tamaşaçı marağı ilə baxmaq həm ssenaristdən, həm də rejissordan xüsusi məharət tələb edirdi. Yazıçı İsa Hüseynov və rejissor Həsən Seyidbəylinin əlində Nəsiminin həyat və yaradıcılığı haqqında dəqiq və geniş mənbələr, faktlar yox dərəcəsində idi. Rejissor və ssenaristin əsas materialı şairin çoxcəhətli, dərin mənalı, polifonik poeziyası olmuşdur. Bu, bir tərəfdən, müəlliflərə müəyyən dərəcədə çətinlik yaratsa da, digər tərəflərdən hər ikisinin yaradıcılıq təxəyyüllərinə geniş imkanlar yaratmışdır. Müəlliflər naturalizimdən və sxematizimdən uzaqlaşıb, yüksək mənada bədii şərtiliklərlə zəngin, realist əsər meydana çıxarmışlar.

Ümumiyyətlə Nəsiminin fəlsəfəsi çox dəyərli, həm də çox çətin qəbul edilən bir fəlsəfədir. Bu fikrin əsasında kamil insan problemi dayanır. Nəsimi qədər kamilləşmiş və dünyada öz ideyaları ilə məşhurlaşmış bir filosofun, kamil insanın haqqında film çəkmək təbii ki, asan deyildi. Rejissor ssenari üzərində çox işləmişdi. Tarixilik problemi əsas götürməklə o, bu günün həqiqətləri kontekstindən yanaşaraq bir yetgin, kamil haqqına qovuşmaq yolunda hər əzaba dözən, bu günün əsl haqq aşiqinin obrazını yaratmaq istəyirdi. Yaradıcı qrupun tərkibinə ən isdedadlı sənətkarlar daxil idilər. Əsas məsələlərdən biri isə Nəsimi rolunu ifa edəcək aktyoru düzgün seçmək məsələsi idi. Filmin əsas qəhrəmanı Nəsiminin həyatını, fəlsəfi düşüncələrini təbii və təsirli oynamaq üçün elə bir aktyor tapmaq lazım idi ki, o, həqiqətəndə mənən və ruhən Nəsimi təbiətində olsun.... Ustad sənətkar Həsən Seydbəyli filmin nəzəri -fəlsəfi qayəsini yaratmaq üçün apardığı gərgin axtarışları və məqsədinə nail olanadək çəkdiyi nigarançılıq hisslərini yada salaraq deyirdi: " Nəsimi əfsanəvi bir dəyanətə yüksək insani keyfiyyətlərə, ülvi, poetik vüsətə malik şəxsiyyət, filosof-alim, şair, ictimai xadim olmuşdur. Belə bir obrazı yaratmaq üçün böyük təcrübəyə, yüksək istedada malik aktyor tapılmalı idi. Bu məsuliyyətin qarşısında biz özümüz də duruxub qalmışdıq. Bəziləri məsləhət görürdülər ki, Nəsimi roluna aktyor seçmək üçün axtarışları daha əhatəli aparaq".

"Nəsimi" filminin çəkilişi üçün ciddi iş prosesi başlamışdı. Baş obrazı ifa etmək üçün nəinki Azərbaycanın, eləcə də başqa respublikaların təcrübəli və istedadlı aktyorlarını sınaqdan keçirmək lazım olduğunu başa düşsələr də onlar həlli asan olmayan əsas bir fakt qarşısında qalmışdılar. Filmdə XIV əsrdə yaşamış qeyri-adi bir filosofun, şairin, "ənəlhəq" deyib özünü həqqə yetirmiş, kamil bir insan dərəcəsinə ucala bilən qeyri-adi, bir aşiqin obrazının özünəməxsus dilini, plastikasını, danışıq tərzini yarada bilən, fövqəladə bir istedad sahibi olan aktyor baş rola çəkilməliydi. Sadaladığımız xüsusiyyətləri aktyorun təkcə sənətkarlığı ilə həll etmək mümkün deyildi. Nəsimi roluna dəvət olunacaq aktyorda mürəkkəb tarixilik, nəsimilik, hürufilik, şairlik kompleksi olması ilə yanaşı, həm də əruz vəzninin ritmi ilə deyilən gözlərdə Nəsimi atəşinin qığılcımını atəşə çevirə bilən bir sənət aşiqinin kompleksi olmalı idi. Həsən Seydbəyli bu faktları əsas götürərək Nəsimi obrazını ifa etmək üçün aktyoru məhz azərbaycanlı sənətkarların sırasında axtarmağa başlamışdı. O, axtarışlarını davam etdirərək " hər yerdə Nəsimini ifa edəcək bir sima arayırdı". Rejissor Həsən Seydbəyli axtardığı aktyoru tapdığını belə izah edirdi: " Rasim elə ilk baxışdan diqqətini cəlb etdi. Yaxından tanış olduqca bu ucaboy, asket görünüşlü oğlanın iri, mənalı gözlərində gizli bir ağrı, həyacanlı bir nigaranlıq, həssaslıq, qiptə və fədailik gördüm. Bəlkə də Rasim özü bunları bütün dərinliyi ilə bilmirdi. Bəlkə də mənim əsas köməyim bu oldu ki, Rasim öz yaradıcılıq xəzinəsi ilə öz çoxcəhətli istedadının boyaları ilə tanış etdim. Altı aya yaxın məşq etdik". Rasim özünü bir istedad, bir yaradıcı, yaxşı imkanları olan bir aktyor kimi kəşf etdi və özü-öz gücünə inandı".

Həsən Seydbəyli öz qəhrəmanının seçimində çox götür qoy etmişdi. Seçmək istədiyi gənc aktyorun haqqında müfəssəl məlumat toplamışdı. Seçimində yanılmayan rejissor Rasimin tələbəlik illərində də yaxşı tələbə kimi tanıdığını, tərbiyəli və bilikli bir gənc kimi hörmət qazandığını qeyd edərək onu dil, tələffüz mədəniyyətinin qənaətbəxş olduğunu bildirirdi.

Tarixi mənbələrlə yaxından tanış olan Rasim Balayev bir aktyor olaraq azad fikirli, azad iradəli, insanı haqqa qovuşmaq yolunda yaradıcı qüvvə kimi tanıyan və bu fikrini təbliğ edən bir fikir adamının inandığı həqiqəti başqalarını da inandırmaq üçün məşəqətlərlə dolu bir həyat yaşamağı özünə borc bilən qeyri-adi bir düşüncə adamının, filosofun həyat və fəaliyyətini ekranda yaratmalı idi. Nəsiminin şerlərini əruzun təsirli imkanlarından istifadə edərək söyləmək üçün aktyorla tanınmış ədəbiyyatşünas alim Əli Fəhmi məşğul olurdu. "İstedad qüdrətli olduğu qədər də kövrəkdir. Ondan düzgün istifadə etmək, onu düzgün istiqamətləndirmək lazımdır. Buna görə də istedadı daim ciddi və ağıllı nəzarət altında saxlamaq lazımdır. Bunun məsuliyyətini istedad sahibləri ilə yanaşı, biz rejissorlar da həmişə işimizdə, yaradıcılığımızda hiss etməliyik" - deyən Həsən Seyidbəyli həqiqətən də Rasim Balayevin istedadına güvənirdi.

Ümumiyyətlə Nəsimi haqqında film çəkmək çoxdanki düşünülmüş bir qərar idi. 1971-ci ildə YUNESKO - nun qərarı ilə dahi Azərbaycan şairi Nəsiminin anadan olmasının 600 illik yubileyi keçirildi. Bu qərar Azərbaycan mədəniyyətində də böyük sayqı ilə qarşılandı. Kinoda da bu dahi, filosof şairin xatirəsini əbədiləşdirəcək və ona laiq olacaq bir film yaratmaq qərarına gəldilər. Bu fəlsəfi aspektdə çəkilən bədii filmin ssenarisini öz yazıçı dünyagörüşü ilə 60-70 ci illərdə seçilən, əsərlərindəki millilik, tarixilik prinsiplərinə görə oxucular tərəfindən maraqla izlənən İsa Hüseyinov yazdı. O, əldə olan tarixi məlumatlara əsaslanaraq Nəsiminin həyatını, acı taleyini, fəlsəfi düşüncələrini bu ssenarisində təsvir etməyə çalışmışdı. İ.Hüseyinov ssenaridə Nəsiminin şerlərindən məqsədyönümlü şəkildə istifadə etməklə bu dahi şəxsiyyətin həyata baxışlarının xarakterini yaratmışdı.

Beləliklə 1974-cü ildə çəkilən " Nəsimi" filmi rejissor Həsən Seydbəylinin sənət bioqrafiyasının zirvəsi sayıldı. Bu ekran əsərində dərin zəka sahibi, öz əməlləri ilə haqqa yaxınlaşa bilən onu öz iç dünyasının hakimi səviyyəsində dərk etməyə qabil olan bir haqq aşiqinin öz məsləki uğrunda apardığı mücadilə öz maraqlı ifadəsini tapmışdır.

"Nəsimi" filminin yaradıcı qurupuna görkəmli sənətkarlar daxil idilər. Rejissor Həsən Seyidbəyli, operator-Rasim İsmayılov, bəstəkar-Tofiq Quliyev, rəssamlar M. Hüseyinov və M. Ağabəyovun birgə səyi nəticəsində filmin istənilən səviyyədə ərsəyə gəlməsi və milli kinomuzda özünəməxsus yerdə dayana bilən bir ekran əsəri kimi yaranması göz qabağındadır. "Nəsimi" bədii filmində rejissor əslində şərq mədəniyyətində əsas vacib faktor olaraq fikrin, təfəkkürün faciəsini yaratmalı idi. Flimdə iştirak edən hər kəsin üzərinə

ciddi məsuliyyət yükü düşmüşdü. Rejissor ilk növbədə obrazın xarakterini, onun psixoloji çalarlarını açmaqdan ötrü rənglərin seçiminə də xüsusi diqqət yetirirdi. Hadisələrin çəkildiyi məkanların məqsədyönlü seçimi, tarixi abidələrin fonunda aparılan çəkilişlərin ustalıqla lentə köçürülməsi operator işinin keyfiyyətinə dəlalət edir. Bakı, Şamaxı, Mərəzə, Naxçıvan, Xivə, Səmərqənd, Hələb, Dəməşq şəhərlərində və Abşeron da çəkilmiş kadrların fonunda filmin həm tarixi, həm də etnoqrafiq cəhətdən dəqiqliyi öz maraqlı həllini tapmışdır.

Tarixi mövzuda çəkilmiş "Nəsimi" filmi VII Ümumittifaq kino festivalında mükafata layiq görüldü. Baş rolun ifaçısı, gənc aktyor Rasim Balayev priz aldı. Rasim Balayev bu rolun ifasına görə həm də Respublika Lenin Komsomolu mükafatı ilə də təltif olundu. Moskvada "Nəsimi" filmi heç bir irad almadan baxışdan keçdi və SSRİ Kino Komitəsi filmin iyulun 1-dən bütün müttəfiq respublikaların ekranlarında, müxtəlif dillərdə nümayiş etdirilməsinə icazə verdi.

Filmdəki bir çox kadrlar həqiqətən tük ürpədicidir. Hətta filmin sonunda, şairin dərisinin soyulması səhnəsində aktyorun Nəsiminin yaşadığa faciənin fonunda onun mərdliyini, sözündə və fikrində bütövlüyünü təbii və təsirli olunması üçün Rasim İsmayılovun kadrı aşağı rakursdan, günəşi əks tərəfdən işıqlandırması vəziyyətində çəkmişdi. Bu kadrlarda Nəsimi-R.Balayev çox inandırıcı bir səhnəni canlandırır. Ağrılara dözməyən və ölümlə üzləşən Nəsimi başını biixtiyar olaraq sağ tərəfə salanda onun başının arxasından günəş dairəsinin işıq nuru kinoaparatının obyektivi üzərinə yollanır. Bütün kadr günəşin işığına qərq olur. Simvolik məna daşıyan bu təsvir kadrında Nəsimi artıq yoxdursa, günəş həmişə yaşardır. Deməli Nəsimi də əbədiyyət üfüqündə doğan bir günəşdir. Hər zaman yaşayıb, yaşayır və yaşayacaq......

## ƏDƏBİYYAT


1. Akif Məhərrəmov. Müasir Azərbaycanın kino aktyorları. / Bakı. "İşıq" 1984/
2. Aqşin Babayev, Aydın Kazımzımov. Azərbaycan kino sənətində ədəbi əsərlərin təcəssümü. / Bakı. "Mütərcim" 2000/
3. Böyük şairə həsr olunur./ Ədəbiyyat və incəsənət. 04.08.1973/
4. Gülrux Əlibəyova. "Nəsimi"nin səsi. /Ədəbiyyat və İncəsənət. 20.03.1976/
5. Həsən Seydbəyli. "Nəsimi" dən başlanan səhifə. / Bakı 13.11.1974/
6. İlham Rəhimli. Əbədiyyət üfüqündə günəş. /Yeni Azərbaycan. 05.12.2005/
7. İlham Rəhimli. Əbədiyyət üfüqündə günəş. /Yeni Azərbaycan. 06.01.2006/
8. İlham Rəhimli. Əbədiyyət üfüqündə günəş. /Yeni Azərbaycan. 07.12.2006/
9. Nəsimi. /Yeni filmlər. № 9.1973/
10. "Nəsimi" filminə ümumittifaq baxış. /Ədəbiyyat və incəsənət. 19.07.1975/
11. Расим Балайев. Насими. /Баку. Спутник кино фестиваля 1974/
12. З.Мухина. Насими. /Москва. Новые фильм. июль 1975/
13. З.Мухина. Насими. /Москва. Спутник кино зрителя. июль 1975/
14. А.Вартанов. Насими. /Москва. Советский экран № 16. 1981/
15. Вера Найденов. Исторический фильм./Москва Филмови новини.№9. 1980/
16. Поема о Насими. /Москва. Советский экран 1973/